# MÜNDƏRİCAT

**Fəsil 1.** "Majestik" oteli ........................................ 6
**Fəsil 2.** Endhauz ........................................ 23
**Fəsil 3.** Təsadüflər ........................................ 40
**Fəsil 4.** Burada nəsə var! ........................................ 53
**Fəsil 5.** Mister və missis Kroft ........................................ 62
**Fəsil 6.** Mister Vayza təşrif aparmaq ........................................ 76
**Fəsil 7.** Bəla ........................................ 86
**Fəsil 8.** Qırmızı şal ........................................ 96
**Fəsil 9.** "A"-dan "K"-ya qədər ........................................ 108
**Fəsil 10.** Nikin sirri ........................................ 125
**Fəsil 11.** Səbəb ........................................ 137
**Fəsil 12.** Ellen ........................................ 145
**Fəsil 13.** Məktub ........................................ 157
**Fəsil 14.** Yoxa çıxan vəsiyyətnamə ........................................ 166
**Fəsil 15.** Frederikin qəribə davranışı ........................................ 180
**Fəsil 16.** Mister Vitfildlə söhbət ........................................ 190
**Fəsil 17.** Bir qutu şokolad ........................................ 205
**Fəsil 18.** Pəncərədəki sifət ........................................ 220
**Fəsil 19.** Puaro pyes tamaşaya qoyur ........................................ 239
**Fəsil 20.** "K" ........................................ 249
**Fəsil 21.** "L" səhnədə ........................................ 252
**Fəsil 22.** Son ........................................ 258

## I FƏSİL

# “Majestik” oteli

Məncə, sahil şəhərlərindən ən cəlbedicisi İngiltərənin cənubundakı Sent Lu şəhəridir. Bu şəhər tamamilə haqlı olaraq dəniz kurortlarının incisi adlanır və heyranedici dərəcədə Riveranı xatırladır. Mənə elə gəlir, Kornuolla sahilləri öz gözəlliyinə görə Fransanın cənubundan zərrəcə də geri qalmır.

Bütün bunları mən öz dostum Erkül Puaroya söylədim.

– Mənim dostum, siz bunları dünən vaqon-restoranın menyu kitabçasından oxuyubsunuz. Sizin mülahizəniz orijinal deyil.

– Məgər siz bununla razı deyilsiniz?

O, fikirli halda gülümsədi və susdu. Mən sualı təkrar elədim.

– Oh, Hastinqs, min dəfə üzr istəyirəm! Mən xəyalən səfərə çıxmışdım və təsəvvür eləyirsinizmi, sizin indicə xatırlatdığınız yerlərdəydim.

– Fransanın cənubunda?

– Məhz orada. Axı mən keçən qışı bütünlüklə orada keçirtmişdim və indi bəzi hadisələri xatırladım.

Mən onun nədən danışdığını bilirdim. Mavi sürət qatarında dolaşıq və sirli şəraitdə törədilmiş qətli nəzərdə tuturdu. Puaro bu tapmacanın həllini heç vaxt onu tərk eləməyən bəsirəti sayəsində tapmışdı.

– O vaxt sizinlə olmadığım üçün necə də təəssüflənirəm, – mən ürəkdən heyfsiləndim.

– Mən də təəssüflənirəm, – Puaro cavab verdi. – Sizin təcrübəniz son dərəcə qiymətli ola bilərdi.

Mən onu çəpəki süzdüm. Çoxillik təcrübəm mənə onun komplimentlərinə inanmamağı öyrətmişdi, amma bu dəfə, deyəsən, o, tamamilə səmimi deyirdi. Hə də, nəyə görə bu adam, nəhayət ki, səmimi olmasın? Mən əslində onun üsullarından əla baş çıxardıram.

– Hər şeydən də çox mənə, Hastinqs, sizin güclü təxəyyülünüz çatışmırdı, – Puaro dalğın halda davam elədi. – Bəzən azca yüngülləşmək lazım olur. Mənim lakeyim Jorj misilsiz adamdır. Hərdənbir onunla hansısa məsələni müzakirə eləməyi özümə eyib bilmirəm. Amma o, təxəyyüldən büsbütün məhrumdur.

Onun dedikləri mənə tamamilə yersiz göründü.

– Puaro, deyin görüm, – mən sözə başladım, – doğrudanmı əvvəlki məşğuliyyətinizə qayıtmağa heç bir həvəsiniz yoxdur? Sizin cansıxıcı həyatınız…

– Mənim dostum, belə yaşamaq məni heç vaxt olmadığı kimi qane eləyir. Günəşin istisinə qızınmaq – bundan gözəl nə ola bilər? Şöhrətinizin pik nöqtəsində kürsüdən enirsiniz – bundan daha uğurlu bir gediş düşünə bilərsinizmi? Mənim haqqımda deyirlər: “Bax,

Erkül Puarodur… dahidir. Təkrar olunmaz adamdır! Ona oxşar birisi heç vaxt olmayıb və olmayacaq da. Di, neyləmək olar. Mən razıyam. Mən bundan artıq heç nə istəmirəm. Mən sadə adamam.

Mənə qalarsa, ondan söhbət gedəndə "sadə" sözünü yaxın qoymazdım. Mənim qənaətimə görə, Puaronun şöhrətpərəstliyi illər keçdikcə zərrəcə azalmır. O, bığlarını sığallayaraq belini kreslonun arxasına söykədi və oturduğu yerdəcə təkəbbürlə xoruldamağa başladı.

Biz "Majestik" otelinin terraslarından birində oturmuşduq. Bu otel buradakı otellərdən ən böyüyü idi. Dənizin qırağındaydı və parkla əhatə olunmuşdu. Aşağılara yayılan parkda az qala hər addımbaşı palma ağacı bitmişdi. Dəniz tünd göy rəngdəydi, avqust günəşi hansı hərarətlə alışıb yanmalıydısa (təəssüf ki, ingilislərə belə mənzərələri tez-tez görmək müyəssər olmur), həmin hərarətlə də alışıb yanırdı. Arılar coşqunluqla vızıldaşırdı, bir sözlə, bundan gözəl, dinc həyatı heç təsəvvür belə etmək olmazdı.

Biz bura dünən axşam gəlmişdik və əgər bu sabahkı səhərdən çıxış eləsək, buralarda həqiqətən də gözəl bir həftə keçirmək niyyətindəydik.

Əlimdən yerə düşən qəzeti yuxarı qaldırdım və yenidən oxumağa başladım. Siyasi vəziyyət qeyri-müəyyən və maraqsız idi. Şəhər rəhbərliyinin səs-küylü dələduzluq əməlləri barədə uzun hesabat dərc olunmuşdu, ümumiyyətlə, adamı həyəcanlandıracaq bir şey yox idi.

– Bu tutuquşu xəstəliyi maraqlı şeydir, – mən səhifəni qatlayıb dilləndim.

– Çox maraqlıdır.

– Sən deme, Lidsdə daha iki ölüm hadisəsi baş verib.

– Çox təəssüf.

Mən səhifəni çevirdim.

– Setonun yer kürəsinin ətrafına uçmağından da yeni heç nə yoxdur. Bu təyyarəçilər qoçaq məxluqdurlar. Onun "Albatros" amfibiya-təyyarəsi[1] yəqin ki, əla kəşfdir. Zavallı o dünyaya yollansa, yazıq olacaq. Doğrudur, hələ ümid var. O, Sakit okeandakı hansısa adaya gedib çıxa bilər.

– Solomon adalarının sakinləri, deyəsən, hələ də adamyeyəndirlər, yox? – Puaro nəzakətlə soruşdu.

– Yəqin cəsur oğlandır. Belələrini gözünün qabağına gətirəndə, ən nəhayət, ingilis olmağın elə də pis olmadığını düşünürsən.

– Vimblidondakı məğlubiyyət çox da acınacaqlı deyil, eləmi? – Puaro qeyd elədi.

– Mən onu nəzərdə tutmuram… – mən sözə başladım.

Dostum incə bir müdaxiləylə üzrxahlığımı yarıda kəsdi.

– Mənə dəxli yoxdur, – o, bəyan elədi, – hərçənd mən zavallı Setonun təyyarəsi kimi amfibiya deyiləm, amma mən kosmopolitəm[2]. Sizə məlum olduğu kimi, mən ingilislərə də daima və qəlbən heyranlıq duyuram. Onlar necə böyük ciddiyyətlə, məsələn, gündəlik qəzetləri oxuyurlar!

---

[1] amfibiya – quruda və suda enib-qalxa bilən təyyarə (tər.)

[2] kosmopolit – vətənpərvərlik hissini itirərək öz vətəninin mənafeyi ilə maraqlanmayan, öz xalqına yad olan və onun mədəniyyətinə xor baxan adam (tər.)

Mənim diqqətimi siyasi xəbərlər cəlb elədi.

– Bizim xarici işlər nazirimiz, deyəsən, əməllicə bir bəlaya düçar olub, – mən gülərək qeyd elədim.

– Zavallı! Onun işi çətindir. O qədər çətindir ki, ağla gəlməyən yerlərdə kömək axtarır.

Mən heyrətlə ona baxdım.

Puaro azacıq gülümsəyərək cibindən rezin qaytanla səliqə ilə sarınmış səhər poçtunu çıxartdı, bağlının içindən bir məktub götürdü və onu mənim üstümə atdı.

– Görünür, dünən bizə yetişə bilməyib, – o, qeyd elədi.

Mən sevincdən həyəcanlanmış halda onu başdan-ayağa kimi süzdüm.

– Amma Puaro, – ucadan dedim, – axı bu, olduqca xoşdur!

– Dostum, siz eləmi düşünürsünüz?

– O sizin qabiliyyətləriniz haqda ən hərarətli ifadələr işlədir.

– O haqlıdır, – Puaro təvazökarlıqla başını aşağı salaraq cavab verdi.

– Təhqiqatı öz üzərinizə götürməyi sizdən xahiş eləyir… bunu öz şəxsi xahişi adlandırır.

– Məhz belə. Siz bunları mənim üçün təkrarlamaya bilərsiniz. Mənim əziz dostum Hastinqs, iş orasındadır ki, mən də bu məktubu oxumuşam.

– Təəssüf! – mən ucadan səsləndim. – İstirahət eləməyə hazırlaşdığımız bir vaxtda…

– Yox-yox, sakitləşin, getmək haqda söz belə ola bilməz.

– Amma nazir deyir işi qəti yubatmaq olmaz.

– Bəlkə də o haqlıdır… bəlkə də yox. Bu siyasi xadimlər başlarını elə tez itirirlər, mən Parisdəki deputatlar sarayında öz gözümlə görmüşəm…

– Elə olmağına elədir, amma biz hər halda hazırlaşmalıyıq. London sürət qatarı artıq gedib, saat on ikidə gedir. Növbəti qatar isə…

– Hastinqs, yalvarıram sizə, bir sakit olun, sakit olun. Əbədi həyəcan, əbədi qaçaqaç. Biz indi Londona getmirik… sabah da getməyəcəyik.

– Bəs bu çağırış…

– Mənə dəxli yoxdur. Mən ingilis polisində xidmət eləmirəm. Sadəcə olaraq, məndən özəl mütəxəssis qismində yararlanmaq istəyirlər. Mənsə imtina eləyirəm.

– İmtina eləyirsiniz?

– Əlbəttə. Mən son dərəcə nəzakətlə cavab verir, öz təəssüfümü və üzrxahlığımı izhar edir, bildirirəm ki, dərdinə şərik oluram, amma əfsuslar! Mən işdən uzaqlaşmışam, mən işi bitmiş adamam.

– Amma bu, doğru deyil axı! – mən coşqunluqla səsləndim.

Puaro mənim dizlərimə vurdu:

– Mənim sadiq dostum… etibarlı dostum… Düzünü demək lazım gələrsə, siz elə də səhv eləmirsiniz. Mənim başım hələ də əvvəllər olduğu kimi işləyir və iş üsullarım, məntiqim hələ də kara gələ bilər. Amma, mənim dostum, madam ki, mən işdən uzaqlaşmışam, demək, uzaqlaşmışam! Bitdi. Mən tamaşaçılarıyla on dəfə vidalaşan teatr ulduzu deyiləm. Mən tamamilə qərəzsiz halda bəyan eləyirəm: qoy cavanlar öz güclərini sınasınlar. Nə biləsən,

bəlkə onlar nəyəsə nail oldular? Düzdür, mən buna şübhə eləyirəm, amma bu, mümkündür. İstənilən halda onlar naziri bunca həyəcanlandıran bu primitiv və zəhlətökən işin öhdəsindən gələ bilərlər.

– Ola bilər, Puaro, amma bu, böyük şərəfdir!

– Mənə qalanda isə, mən bunlardan yüksəkdəyəm. Ağıllı adam olan daxili işlər naziri başa düşür ki, əgər o mənim köməyimdən istifadə eləməyə nail ola bilsə, hər şey qaydasınca olacaq. Amma neyləmək olar? Onun bəxti gətirmədi. Erkül Puaro artıq sonuncu işini başa vurub.

Mən ona baxdım. Qəlbimin dərinliyində onun inadkarlığına görə təəssüflənirdim. Belə iş hətta onun dünya şöhrətinə yeni rəng qata bilərdi. Eyni zamanda da mən onun yenilməzliyinə heyran qalmaya bilməzdim.

– Lakin mən başa düşmürəm, – gülümsəyərək sözə başladım, – siz necə olur ki, qorxmursunuz? Belə qəti bəyanat vermək – bu, sadəcə tanrıları tovlamaqdır.

– Erkül Puaronu, – o cavab verdi, – qərarından döndərə biləcək adam yoxdur.

– Elə beləcə, yoxdur?

– Mənim dostum, sən haqlısan, belə sözlər danışmaq riskli işdir. Əslində isə mən demirəm ki, əgər güllə mənim başımın yanından divara dəyərsə, mən işin nə yerdə olduğunu öyrənmək istəmərəm. Ən nəhayət, mən də insanam.

Mən gülümsədim. Məsələ bundaydı ki, bu söhbətdən bir dəqiqə əvvəl terrasa balaca bir daş parçası düşmüşdü. Puaro danışmağa davam eləyərək əyildi və daşı götürdü.

– Hə, cəmi-cümlətanı insanam. Hətta indi bu insan yatmış itə oxşayır… Di, nə olsun! İt oyana da bilər. Sizdə axı atalar məsəli var: yaxşısı budur, yatmış iti oyatmayın.

– Tamamilə doğrudur, – mən təsdiq elədim. – Ümid eləyirəm ki, siz sabah səhər öz balışınızın yanında xəncər taparsınızsa, onda qatilin vay halına.

O, başıyla təsdiqlədi, amma nəsə dalğın idi.

Mənim təəccübümə rəğmən o, birdən ayağa qalxdı və terrasdan aşağı düşdü. Bu an cığırda tələsik addımlarla bizə yaxınlaşan bir qız göründü.

Mənə elə gəldi ki, qız xarici görünüşcə elə də pis deyil, həm də mən ona əməlli baxmağa macal tapmadım, çünki Puaro mənim diqqətimi yayındırdı. O, ayağının altına baxmadan yeriyirdi, birdən ayağı ağac kökünə ilişdi və o yıxıldı. Biz qızla birlikdə – Puaro birbaşa qızın ayaqlarının altına yıxılmışdı – ona ayağa qalxmağa kömək elədik. Məlum məsələdir ki, mən öz dostumla məşğul idim, lakin gözucu baxıb qızın tünd rəngli saçlarını, dəcəllik yağan sifətini və böyük mavi gözlərini görə bildim.

– Min dəfə üzr istəyirəm, – Puaro pərt halda donquldandı. – Madmazel, siz qeyri-adi dərəcədə lütfkarsınız. Mən çox-çox təəssüflənirəm… Uf…f! Mənim ayağım… necə də ağrıyır! Yox-yox, ciddi heç nə yoxdur, sadəcə topuğum çıxıb. Bir neçə dəqiqədən sonra hər şey qaydasınca olacaq. Amma, Hastinqs, əgər siz mənə kömək eləsəydiniz… siz, bu tərəfdən də madmazel lütf edib yapışsaydı. Mən ondan xahiş eləməyə utanıram.

Qızla mən iki tərəfdən Puaroya yapışaraq onu cəld terrasa apardıq və kresloda oturtduq.

Mən həkimin arxasınca getməyi təklif elədim, amma Puaro qəti etiraz elədi.

– Sizə deyirəm, boş şeydir. Sadəcə topuğum çıxıb. Bir dəqiqəlik ağrıyacaq və hər şey keçəcək. – O, qaşqabağını tökdü. – Özünüz də görəcəksiniz, bircə dəqiqədən sonra mən hər şeyi unudacağam. Madmazel, mən sizə min dəfə minnətdaram. Siz həddən artıq iltifatlısınız. Xahiş edirəm, əyləşin.

Qız stulda əyləşdi.

– Əlbəttə, bu, ciddi deyil, – qız dedi, – amma həkimə göstərməyin bir ziyanı olmaz.

– Madmazel, sizi əmin eləyirəm ki, bütün bunlar boş şeylərdir. Sizin kimi qızla birlikdə olduğumdan ağrı artıq keçir.

Qız gülümsədi.

– Bu lap yaxşı!

– Bəs kokteylə nə deyirsiniz? – mən maraqlandım. – İndi, demək olar ki, əsl vaxtıdır.

– Nə olar… – qız duruxdu. – Sağ olun, məmnuniyyətlə.

– Martini?

– Hə, lütfən, turş martini.

Mən getdim. Kokteyli sifariş verib qayıdanda Puaro qızla qızğın söhbət eləyirdi.

– Hastinqs, siz təsəvvür eləyirsinizmi, – o, sözünə davam elədi, – o ev, o ən kənardakı, bizim valeh olduğumuz o ev madmazelə məxsus imiş.